# FÜZULİNİN DƏRDDAŞI ŞƏHRİYAR

***Ağladıqca kişi qeyrətsiz olur...***
**M.Ə.Sabir.**

***Ağrı suçsuz, ağrı mə'sum.***
***Ağrımayan anlayammaz ağrıyanın ağrımasın***
**Müəllif.**

Ağrı tarix boyun insanın yol yoldaşı olmuş, həyatının ayrılmaz hissəsinə dönmüşdür. Ağrılar müxtəlifdir: İç və dış, yəni mənəvi və fiziki ağrılar var. Fiziki ağrıların tədavisi həkimə, doktora bağlıdır, mənəvi ağrını hərə bir cür daşıyır və yaşayır. Onun əlacı hardasa mümkünsüzdür. Odur ki, böyük Füzuli "Eşq dərdi ey müalic, qabili dərman deyil, Cövhərindən eyləmək cismi cüda asan deyil" deyirdi; Bir də fərdi ağrılar var, milli və bəşəri ağrılar var. Bu ağrıların ən böyük daşıyıcıları da şairlər olur.

Ağrı xaotik meşə həyatından, mağara dövründən, yaşamın dansökülənindən bəşər övladına bəlkə də qorxudan sonra gələn ən böyük hissdir. Qorxan insanın içində fırtınalar, təlatümlər, burulğanlar baş qaldırır, nəticədə nələrsə qırılıb tökülür və ... AĞRI peyda olur. Ağrı da iki cürdür: fiziki ağrılar və mənəvi ağrılar. Fiziki ağrıların həkimlik olanı var ki, dava-dərmanla, ya da skalpellə keçib gedir, sağalır, hakimlik olanı isə qalar Allaha, ya sağaldar, ya da dəftər qapanıbsa müalicəsi olar qəbr evi. Bunula da hər şey bitər. Amma mənəvi ağrılar başqa... Ən çox ağrıyan ən həssas insanlardır, ən çox dərdlənənlərdir. Bunlar bəzən o qədər ağrıya alışır ki, sonda ağrısız yaşaya bilmir, ağrı ilə bütövləşir, aşiq-məşuq olur. Dərd əhlinə, qəm əhlinə dönür, Yaradandan "qəm etmək kəmalı", "bəlayi eşq ilə aşina olmaq" diləyir. Amma bu aşina olmaqlığın-ikincisi yaşamın kosmosunda-günortacında "şəbi-hicran"da boy verir, çiçəyi onda çırtlayır.

Füzuli dünyanın ən dərdkeş və dərdə aşiq şairidir. Dərdin ən böyük daşıyıcıları, paratonerləri şairlərdi, qələm əhlidi. Bunların önündə də böyük Füzuli gəlir. Nə idi Füzulinin dərdi! Mal, mülk, şan-şöhrət, "9 ağça təqaüd", rindanəlik, "xəlqə risvalıq sevdasından usanmamazlıq", "bimar sanılmamaq", "qara bəxtin oyanmaması", "salamın rüşvət deyil deyə alınmaması", "mətainin satılmaması", dərdin "Bəngü badəsi" "namülayim sözlərin, namübarək üzlərin" xortlaması... Bəlkə də bu xaotik ortamda bu deyilənlərin cəmindən nəşət edən bir yanğı idi Füzulinin dərdi. Əlbəttə mal-mülkdən, şan-şöhrətdən, məqam sevdasından başqa. Füzulinin belə cılız dərdləri yox idi. Bunların fövqündə idi şair. "Hədisi ərbəin"indən, "Hədiqətüs-süəada"sından, "Mətləül-etiqad"ına, oradan "Şikayətnamə"sinə və Məcnunun faciəsinə qədər nəzər salsaq, şairi nələrin rahatsız etdiyini, hansı xaotik nizamdan kosmotik dönüşüm arzusunu fəhm etmək, sözün fəlsəfi, siyası, mənəvi-əxlaqi və təsəvvüf anlamlarında nə kimi mənalar kəsb etdiyini duymaq, anlamaq olar bəlkə. Bir şair ürəyinə bu qədər bəşəri dərdlərin, qlobal düşüncələrin necə sığdığına heyrət etməyə bilmirsən. Füzuli bu dərdlərlə dolub daşanda Sultan Süleyman dünyanın dəngəsini əlində saxlayacaq bir gücdə, hətta İspaniyadan öncə Amerikanı kəşf edə biləcək bir durumda "oldu, ol(may)acaqda" idi. Onun yanında az qala o boyda bir gücdə pusquda yatan Qızılbaş dövləti də vardı. Dünya çapında sanki sadəcə bu ikisi var. Başqa bir güc mərkəzi yox idi. Gizlicə cücərməkdə olan qərb-batı özü Qanuni ləqəbini verdiyi Sultan Süleymanın "salamı rüşvət deyil deyə alınmayan" (5. 298) idarəçiliyinə bir də Füzuli prizmasından baxış var. Gecənin sonunun gəldiyinin işarəti qaranlığın ən zirvə nöqtəsi olduğu kimi, Osmanlının da qürub işarətləri ehtişamının zirvədə olduğu Süeyman dövrümüydü ki, bunu Füzuli hiss edirdi və bu dəbdəbənin, zəfərlərin içində çürümənin və çöküşün də başladığını görürdü. Bu çöküşün özü ilə nə bəlalar gətirəcəyini, kimlərin nələr itirəcəyini, məzlumların "göz yaşının dərya olacağını" hiss edirdi, duyurdu bəlkə. Həm siyasi, həm maddi, həm mənəvi mənada. Füzuli bunun dərdində idi.

Füzuli sanki bir gün Şəhriyarın çəkəcəyi "Qaranlıq gecələr"də "Aman Allah, yenə şeytan gəlib iman apara" harayın tüstü-dumanı içindəydi. Şəhriyar "yenə" deyir. Yə'ni şeytan həmişə gəlib, yenə də gəlir və gələcək. Bu səbəbdən "əfqanı xəlqi oyadan" Füzulinin "qara bəxti" yatmaqdadı. "Bimar sayılmamağındanmı"? Füzulinin ən böyük dərdi "şəbi-əruz"dakı olacaq əhvalı, baş verəcəklər, hesab sahibindən hesab qorxusu, CANANA qovuşmaq istəyi. Nə Özünün, nə "del"inin(ürək) olmayan canını "CANAN diləyinə" onu sevə-sevə vermək eşqi. "Canı Canan diləmiş, verməməmək olaz ey dil(del), Nə niza eyləyəlim, ol nə sənindir, nə mənim!". Sözün dini mənasında, təsəvvüf anlamında bu belə idi. Burada maddi-fəlsəfi "cananı" düşünmək, təsəvvürə gətirmək belə olmur. Çünki O, "Can verib Dilbərə minnət qoyalım canımıza" deyən şair idi. (Misradakı "dilbər"in fəlsəfi kodu dünya gözəli kimi düşünülsə də, təsəvvüf kodu Allahdır). Bu fikirlərin tam mənası ilə açımı "Hədiqətüs-süəda" əsə-



rində müşahidə edilir. İsmayılın qurban kəsilmə ərəfəsində şeytanın ana, ata və oğula yanaşması və onların cavabı. Eyni missiyanın Kərbəlaya proyeksiyasında İmam Hüseyn və yanındakıların canlarını sevərək Canan yolunda qurban etməsi. Tam təslimiyyat. Füzulinin məramı, missiyası da elə bu idi. -Tam təslimiyyat. Fənafillah olan, Canana qovuşmaq arzusu ilə "canı yanan" şairin ən böyük dərdi elə bu idi. Çiçəyin çırtladığı bu anda Haqq yolçuluğunun "günortacında" şairin əndişəsi də "Məni bimar sanmazmı!" nidası idi. Günbatışın başlanğıcında "bimar sanıla" bilmək. Füzulinin bu dərdi o mənada bəşəri və əbədi idi ki, Sultan Süleymanın da günortacından gün əyilirdi; qərbdən alaraq öz idarəçiliyinə qatdığı "qanunları" ilə, Valyaları, Sonyaları ilə. Və bu paradiqma şairi fərddən çıxarıb küllə qovuşdururdu.

Günortacından gün əyilən Süleyman ehtişamının içindəki qürub cücərtilərinin suv(b)aranı, qığılcımların çaxmaq çaxanı kim idi!? Bunu Füzuli görüb hiss etdimi, və göstərdimi!.. Bu suallar cavabsız qalsa da, həm mənəvi-əxlaqi dəyər anlamında, həm dini yaşam tərzində, həm də türk dünyasının siyasi səhnəsində ocaq küllənməyində idi. Qatılaşan küllər altındakı közlərin nəfəsini kəsə-kəsə külləməkdə idi. Bu küllənmə ağrısı Füzulinin içindən kül tufanı kimi əsib keçməkdə, "vəfa istədiklərindən cəfa gördüyündən" "əhli-aləmdən üz çevirməkdə" idi.

Bəs Şəhriyarın ağrılrı nə idi!

Onu için-için göynədən, Füzuli zirvəsində bir dərdə dönüşdürəcək ağrılar? "Aləmə saldığı bu səsin" altında nələr vardı? "Tehranın qeyrəti yox Şəhriyarı saxlamağa". Amma buna qədər şairin "göz yaşıyla yazılan" "dün-günü ağlar keçdi." "Qatar altında qalıb üstündən sel kimi dağlar keçdi". Bu qədər əzilmənin, bu qədər sındırılmanın, "dövünmə və sövünmə"nin altından əzik-üzük halda çıxan Şəhriyarın çiynindəki dərdlər nə idi! Sürəyyasına qovuşa bilməmək, rejimin sındırıb onun əlindən gücla aldığı sevgilisinin eşqindən imtina, sürgün və tərki-dünyalıq. Fars qızı olan bu Sürəyyanın təmsil etdiyi millətin Şəhriyarın təmsil etdiyi millət üzərində zalimanə təcavüzü, zülmü, manqurtlaşdırma siyasətimi? Bu faktorların bu qədər paralelliyi, yoxsa paradoksumu? Ya ümumiyyətlə "Şeytanın iman aparma qorxusu ilə gəlmə" əndişəsi. Əslində bu şeytan özü kim? Dinin bizə təqdim etdiyi insanları yoldan çıxaracaq cənnətdən qovulmuş mələkmi, şeytanlaşmış insanlarmı, dövlətlərmi, dövlət başçılarımı, vicdanini itirmiş imkanlı, imtiyazlı adamlarmı? Yoxsa "onlar varkən mənə nə hacət" deyib iblisləşdirdiyi iblisləri qəhqəhələrlə seyr edib kənara çəkilən İblismi? "Eyvah anam!", "Mənim atam süfrəli bir kişiydi." -deyib Əzizəsini itirən, qoca yaşında "Heydər Babasının çəkib gətirdiyi", "Qovalayıb qurd ağzından qapdırıldığı" qoca şair. "Aləmə səs salan" dərdli Şəhriyar. "Nəfəsini saldığı" Heydərbabasının faciəsini, gücsüzlüyünü, acizliyini hiss edib sızlaya - sızlaya dediyi "Amandı, gəlmə!!!" (Öz səsi ilə səsləndirilən şeir.) nidasımı?

...Hər nə desək, dilimizdə deyirik,
Baxsan ürəklərə yalandı, gəlmə!
İndi yalan sözə çox müştəri var,
Düz qocalıb yalan cavandı gəlmə!
...Hər yerdəsən, ordan çıxma eşiyə,
Zəmanəmiz betər zamandı, gəlmə!
...Yüzdə bir nəfərin qəlbi düz dəyil,
Dinimiz riyadan talandı, gəlmə!

Ustad Şəhriyar "Şeyxülislamın gözəl səsinin, Ağacların da Allaha baş əydiyi", "Allah nə xoş dərdsiz-qəmsiz yaşadığı", "Özünü əzdirdiyi, Ağac minib at gəzdirdiyi", "badyaların südünün aşıb daşdığı", "bostan pozub, taxta-tabağı doldurduğu, qovurğanın sac üstündə qaynadığı, buğda verib armudlardan aldığı" günlərin həsrətini çəkir. Onların nisgili ilə yaşayır. O günlər yada düşəndə "...damağında dad verir, itgin gedən günlərindən yad verir". Ümumiləşmiş şəkildə "itkin gedən günlər"in göy qurşağında "Heydərbabaya salam"ın, bütövlükdə şairin yaradıcılığının ruhuna hopub bu ağrılar, bu nisgillər. Uşaqlıqdakı xoş günlər bir ilğım kimi, bir su içimi, göz açıb yumma kimi ötüb keçib. İndi özü demiş, "bir sinema pərdəsidir gözündə" və oturub bu "sinema pərdəsini" seyr etdikcə görür ki, artıq "Yaman yerdə gün doğub, axşam olub. Dünya ona xərabeyi-Şam olub. Şeytan bizi azdırıb, Məhəbbəti ürəklərdən qazdırıb. Ağa ölüb, tifaq dağılıb, Qoyun olan yad əllərdə sağılıb." Şəhriyar məsələni bir az da qloballaşdırır, əbədiləşdirir. "Dünyanın yalan olduğunu, Süleymandan, Nuhdan qaldığını, oğul doğub sonra da dərdə saldığını və hər kimsəyə hər nə veribsə aldığı"nı söyləyir. Bu fikirlər Dədə Qorquddakı "Gəlimli-gedimli dünyaya" bir göndərmə, Şəhriyar dövründəki təzahürüdür.

"Heydərbabaya salam" poemasında atasının (ki "ondan sonra dönərgələr dönübdü"), Məzlumların həqqi üstə əsən, Zalimləri qılıc təkin kəsən Mirqafarın, Xoşginabın əbrusu ərdəmi Mirmustafa dayının, Buludlu dağlar kimi guruldayan, sözü ağzında yağlar kimi əriyən Məcdüssadat və s. kimi onlarla yurddaşının yaddan çıxmaz obrazları yaradılıb. Bir bənddə, bir misrada Nənəqizin, Rəxşəndənin, Fizzə xanımın, Rüxsarənin portreti canlandırılıb. Onlar gedəndən sonra "Xoşginabı yaman günə salıblar." "oğul doğan, dərdə salan, hər kimsəyə hər nə veribsə alan" dünyada "Yaman yerdə gün döndü axşam oldu, Dünya mənə xərabeyi-Şam oldu",- deyir, -Şəhriyar.

Şairi yaradıcılığı boyu göynədən, ona rahatlıq verməyən ağrılar sadəcə fərdi dünyasının dərdi, problemləri deyildi. O, həyatın hər sahəsindən rahatsızlıq, əndişə duyan, çox məsələlərin sancısını çəkən bir şair idi. Öz başına gətirilənlərin faciəsini yaşayıb ifadə etməkdən əlavə Sürəyyasından tutmuş həyatdan cavan gedən Əzizəsinə qədər hər xırda detalı obrazlaşdırıb, ona bəşərilik və əbədilik qazandırmışdır. Bunlar fərdilikdən çıxıb bəşəriləşmiş halda sərgilənir. "Eyvah anam" şeiri, əlbəttə, onun öz anası, analı və anasız dünyası ilə bağlı günlərinin estetik və təkrarsız təzahürüdür. Bu, eyni zamanda hər insana xas olan, hər insanın anası ilə bağlı duyğu -düşüncələrini, yaşantılarını əks etdirən bir əsərdir. Hər kəsin anası onun üçün ölməzdir.

Dünyasını dəyişsə də, hər an yanındadır, qayğısını çəkir, yun əyirir, corab toxuyur, çayına, xörəyinə diqqət eləyir, hər yanda bir ana havası əsdirir. Bu anasız analı dünyanı öz dünyasından çıxarıb anasını itirən hər insanın daxili aləminə mal edir, kütləviləşdirir.

***(Davamı 5-ci səhifədə)***

*(Əvvəli 4-cü səhifədə)*

Şəhriyarın ağrıları birləşib bütövlükdə yaradıcılığına hopub, misralarına, sözlərinə səpələnib. Onları qruplaşdırmaq istəsək şairin fərdi, sosial, milli, Vətən, bəşəri, mənəvi-ruhi və s. kimi ağrılar çıxar ortaya. Ancaq bu ağrılar bütövlükdə bir-birinə elə kələdlənib, elə qaynauıb qovuşub ki, seçib ayırmaq olmur, sanki hamısı bir yerdə, vəhdətdədir. Ancaq hamısının başında Vətən, millət, millətin aşınması, sındırılması, əldən gedən dəyərlərin dərdi və bu dərdlərdən gələn ağrıların bədii təsviri durur. O səbədən yoxa çıxmış, millət üçün əlçatmaz olmuş "aydın günlərə" az qala yalvarır ki, "ağlar yüzə gülsən bir." Amma yox, artıq "ömrün köçü gedər-gəlməz yollara gedib", "... baxanda qovzanıllar, baxıllar, Bir də yatıb yandırıllar, yaxıllar." Nəymiş bu millətin günahı ki, hərə öz canının hayına qalıb, kəndli yandırmağa çıraq tapmır, adi bir burun qanı kəsən yox, qəmimizi dünyalar tumur!? Doğrudanmı "çəpişləri qıdıxlayan, sütülləri ütən, badyalar dolub-daşan günlərimdə" xoşbəxt imişəm, yoxsa uşaq yazıq "hər zad ilən şad olarmış" və bunu da xoşbəxtlik sanarmış.

Hər kəsin içindən bir fikir keçə bilər: "Nə xoşbəxt imişəm, bir zaman Allah". Şəhriyar da bir zaman xoşbəxt olduğu günlərin həsrəti ilə Vətəninə qayıdır. "Özünü əzdirdiyi, ağac minib at gəzdirdiyi" o "xoşbəxt günlərin " əslində bir illuziya olduğunu görür. Dərin bir "Ey vah" keçir könlündən. Sən demə elə "qəmli qürbət" buradaymış.

Səhəndin yazdığı "Dədə Qorqud"un səsini alsa da, Arazın bu tayından nərələr ucalıb "qorxma gəldim", "can-can" deyilsə də, bu bir anlıq eyforiyanın dalınca

Yenə qardaş deyərək qaçmada başlar ayaq oldu,
Qaçdıq, üzləşdik Arazda, yenə gözlər bulaq oldu,
Yenə qəmlər qalaq oldu.
Yenə qardaşsayağı gözlərimiz birsayaq oldu,
Vəsl iyin almada, əl çatmadı, eşqim damaq oldu...
Amma Heydərbaba da bildi ki, biz tək hamı dağlar,
Bağlanıb qol-qola zəncirdə, buludlar odur ağlar,
Nə bilim, bəlkə təbiət (? S.H.) özü namərdə gün ağlar.
Əyri yolları açarkən düz olan qolları bağlar,
Saf olan sinəni dağlar!
Dağların hər nə qoçu, tərlanı, ceyranı, maralı,
Hamı düşkün, hamı yorğun, sinələr dağlı, yaralı,
Gül açan yerdə saralı.

Bu qədər dərdin ağırlığında qovrulub xumarlanırkən bu haledən qopub aralanmaq istəməsən də şairin poetik incəliyinə, metaforik gücünə heyran qalmamaq da olmur. "Eşqin damaq olması." Damaq qaramala düşən bir xəstəlikdir. Dil-ağzın üst təbəqəsi aşınır, selik axıdır, heç nə yeyə bilmir. İnsanı bir şeyə tamahı düşəndə ağzının suyu axır. Damaq olmuşlar kimi. Eşqin damaq olması birinci fikirlə səsləşir. Yəni artıq heç nəyə yaramaz hala düşüb. Yeyib içə bilmir, aşındırılıb. Dağlar sözü isə özlüyündə iki mənanı ifadə edir: Həm yerdən yüksələn hündürlüyü, həm də oddan sinəyə çəkilən dağı-dağlanmağı. Şair qəlbinin genişliyinə bax ki, "təbiətin namərdə gün ağlayacağı" ümidi ilə namərdin belə halına ya-

Tehranı Dəccal mənə Təbrizlədi,
Mən də gəlib Təbrizi Tehranladım.

Burada Füzulinin "Heyrət ey büt" kəlamı yada düşür və şairi anlamqada aciz qalırsan.

İstər keçmiş, ya da indiki Rusiya, istər Sovet rus dövləti-ümumi halda güney Azərbaycan türkləri üçün qüzey haradasa tarixən ümid qaynağı olub. Güneylilər qüzeylilərə bel bağlayıb, bəzən pənah gətirib. Bu bəlkə də qüzeydə soydaşların olmasına görə belə olub. Amma ideologiya da az rol oynamayıb. Xüsusən sovet dövründə bu ümid bu aldanma çox güclü olub. Aldanmadan Şəhriyar da nəsibini almamış deyil. "Stalinqrad qəhrəmanları", "Qafqazlı qardaşlarıma" adlı şeirlərində, xüsusən də qüzeydəki sovet dövrü Azərbaycanına xitabən yazdığı şeirlərdə bu hiss çox güclüdür. Ancaq çox keçmir, Şəhriyar bu aldanılmışlığı anlayır və "Babiyə, bolşevikə gör nə giriftar olduq, Bulaşıb hər nəcisə, gör necə murdar olduq" deyir. "İns və Cin" şeirində bu fikir bir az da aydın və kəskin səslənir:

Şurəvidən də nicat umduq ki, xeyir olmadı,
Olmasa çay sandığında çay, gələ Çindən nicat.
Mən toyuq tək öz hinimdə dustağam illər boyu.
Bir xoruz yolla, tapım mən bəlkə bu hindən nicat.

Bu xoruz gələ bilər bəlkə də, amma gələn kimi onun da banlamağı bircə ağız olacaq. Odur ki, "Gözüm aydın" adlı nikbin ruhlu kimi görünən şeirində də yüz illik faciələrindən danışır:

Sil gözündən bu yüz ildən bəri göz yaşlarımı,
... Qoçu qurbanlarımı kəsdi Vətən oynaşımız.
Qanımı xeyrət edərkən yedi bozbaşlarımı.

# FÜZULİNİN DƏRDDAŞI ŞƏHRİYAR

Heydərbaba, səni vətən bilmişdim,
Vətən deyib, baş götürüb gəlmişdim,
Səni görüb göz yaşımı silmişdim,
Halbuki, lap qəmli qürbət səndəymiş,
Qara zindan, acı şərbət səndəymiş.

Nə dərdli bir ümidsizlik. Necə acı bir çarəsizlik. İllərdi həsrətilə ayrı yaşadığı canının bir parçası saydığı Təbrizində, Xöşginabında nələrlə qarşılaşır. O vaxt o qayğısız günlərində elə bilirmiş xoş günlərini yaşayır, amma heç də elə deyilmiş. İndi də "İtgin gedən günlərin" (11.12) ağrıları altında əzilir, sızıladayır. Acı xatirələr baş qaldırır.

Qəbiləmiz burda qurub ocağı,
İndi olmuş qurd-quşların yatağı,
Günbatanda sönər bütün çırağı,...
"Titrəyir əllərim, tor görür gözüm,
Mənmi qocalmışam, ya zəmanəmi!"

"Koroğlu" dastanının bəlkə də zirvə noqtəsidir qocalmış, müdrik Qəhrəmanın Qorqudlaşan məqamı. Nərənin, dəlilərin, igidliyin, Çənlibelin, Qıratın keçmişdə qaldığı, tüfəngin çıxıb mərdliyin getdiyi günlər arxada qalıb. Yeri göynəyir. Ömrün başa yetdiyi, "çəkilən qovğaların bitdiyi, tüfəngin çıxıb mərdliyin getdiyi" anın zirvəsindən geriyə baxan Koroğlunun özü ilə, dünyası ilə həsb-halı, alış-verişi, "innə lilləhi, innə ileyke raciun"un deyiləcəyi anın astanasında Şəhriyar da dayanır, ancaq o sadəcə ömrünün sonunda yaşamır bu duyğuları, az qala bütün ömrü boyu "itkin gedən günlərin" acısını daddığı andan "ağac minib at gəzdirdiyi" günlər çox arxada qalmış olur, yuxuya dönür, xəyala dönür və bu əl çatmazlıqdan hər ikisinin: "Süleymandan, Nuhdan qalan, Oğul doğub dərdə salan" dünyanın, yəni zəmanənin də, özünün də qocaldığını dərk edir. Bu məqamda "Qanı dediyim bəy ərənlər!" deyən Dədə Qorquda bir göndərmə edir və bu nöqtədə üç müdrik zirvə birləşir. Qorqud, Koroğlu və Şəhriyar. Bu itkin gedən günlərin içində özünün fərdi ağrıları hər nə qədər fərdi görünsə də tipikləşir, bəşəriləşir, zaman-məkan məfhumu itir, qloballaşır, fərddən milli ağrılara, oradan da bəşəri dərdə dönüşür. Şəhriyar haray çəkir: Aman Allah, yenə şeytran gəlib iman apara, Qoruyun, qoymuyun imanızı şeytan apara. Burada artıq mənəvi ağrıların burulğanında üzülür "kəndini tapıb kəndisini itirən" şair. Bu o qədər dərinləşir ki, hətta yeganə nikbin ruhlu deyə biləcəyimiz "Səhəndiyyə"nin özündə belə dərin qatlarda bunu görməmək mümkün deyil. Səhəndə belə səslənir:

Səni Heydərbaba ol nərəlırilə çağıranda,
O səfil, darda qalan, tülkü qovan şir bağıranda,
Şeytanın şıllağı qalxan qatırı noxta qıranda,...

nır. "Üz tutub min belə gördüyü" (Füzuli) insanlardan əl üzülüb, ümid "təbiətə" (Allaha) qalıb; ki bu ümid də əslində elə qiyamətə qalıb.

Və vətəni Təbrizə böyük ümidlə gələn Şəhriyar ümidlərinin suya düşdüyünü görəndə "Amandı, gəlmə" deyə fəryad elədi. Çünki "Mənim evim yox daha, mən tək xanimansızın Görüşünə bir nəfər, bircə insan gəlmədi.

İndi burada
Yüzdə bir nəfərin qəlbi düz deyil.

Dinimiz riyadan talandı, gəlmə! deyən şair sual edir ki, "Niyə qəbul olmur dualarımız, hər işimiz xəta, duamız riya görünür?"; özü də cavabını verir: Çünki "yaxşı-pisi bir-birinə qatmışız". Bu səbədəndir, riyakarlığımızdandır ki, bir zamanlar hər yerdə ehtiram görən kərbəlayılar, qan durduran hacılar qəhətə çıxıb. İndiki hacıların süfrəsində tiryək paylanır. Əvvəlkilərin iki rekət namazı və yağmur duası ilə yağış yağardısa indikilərin səmərəsi yoxdur, yağış da quruyub, qar da, yer altında quyular da. Bular bizim özümüzə qeyidir, Öz oxumuz özümüzə qeyidir. Odur ki, "gəlmə!". Gələn qabağına kimsə çıxmaz, kimsə köməyin olmz, ürəyin bundan betər qan olar.

Sübh xəyalilə xoruzlandı kənd.

Şəhriyarın "Sabirin xoruzu"ndakı bu misrası səhifələr dolusu açıqlama istəyir. Yəni nədənsə ümidləndi, içində yatan Don Kixotluq baş qaldırdı. Hər şeyi hesablamadan ayağını yorğanına görə uzatmadı və özü də onlardan biri sayaq "Hophop tək bir ağız banlayır." Nəticədə bir salim qol-qanad qalmır və banlamağın dadını anlayır. Bir banlamağa görə qol qabırğasını qırıb tökürlər. Yəni hində mövcud olacaqsan (yaşamaq deyil, sadəcə mövcud olacaqsan) amma xoruzlanmayacaqsan. Hətta xoruzluğunu unudacaqsan, şukr elə ki, mövcud- luğunu da çox görməyiblər. Sənin yerinə xoruzlanan var. Bu təmsildəki "qəhrəmanın" prototipi Şəhriyar, cücələrinin yanına gəlmədiyini görüb "ağrını" yanına alır, onu "yanlayır" və acı-acı:

Bax necə heyvan eləyiblər məni?

Mən necə bu heyvanı insanladım? deyir. Heyvanı insan sandım, adam bildim; yoxsa onu insan elədim. Bir dörd ayaqlı heyvanı əhilləşdirdim, ona adam kimi dil öyrətdim, və ya bu iki ayaqlı heyvanı insanladım, insan elədim, amma ironik şəkildə. Beytin daha müxtəlif yozumu ola bilər. Şair şeiri belə davam etdirir:

Aqil olub əql məni danladı,
Aşiq olub mən də onu danladım.
"Əl atıb Allah ətəyin tut", -dedi,
Gör necə müşkülləri asanladım.

"Qarabağım" çıxıb əldən "Segahım" qoy "Yetim" olsun...
O xarab kət (kənd, köy - S.H.) də vəlakin elə bəy-xan ilə getdi...
Bizdə bir din qala bilmişdi miras, bir də bu İran.
Din gedəndə dedi: "Tək getmərəm!" İran ilə getdi...
Türkü olmuş qadağan, divanımızdan da xəbər yox,
Şəhriyarın dili də "Vay" deyə divan ilə getdi.
Mənim eşqim ucalıb, qürbət olub dünya mənə,
Dost duyanmır döyünür, düşmən duyanmır, öyünür. -"Həkimə can" şeirindən.

Soyuq küləklərin əsdiyi bir məkanda Kasıbın dərisini soyur şaxtalı qış da. Yoxsulun bu ölkədə dərdi var, dərmanı yox, Mürüvvətsiz təbibin pulu var, vicdanı yox.

Və belə bir zamanda, belə bir məkanda "Hərif istehza edib Şəhriyara söylədi:

Yoxsulları tuturlar, ehtiyatlı ol dedi." "Qış ağası"

Şəhriyarın hansı əsərinə nəzər salsaq dərdlə, kədərlə yoğrulduğunu, ələmlə dolu olduğunu görərik. Nikbin ruhlu şeirlərində belə həzin notlar az deyil. Bunlar birbaşa onun həyatı ilə bağlı olsa da, ümumi şəkildə insanlığın, xüsusilə də bütün hüquqları əlindən alınmış soydaşlarının dərdidir, onların yaşantısının estetik təcəssümüdür. O kədərini "Tədrici ölüm" şeirində belə ifadə edir:

Gəncliyimdən xəcalətəm, çünki yoxdur zindəganlıq,
Həyatımda nə sevinc var, nə bir fürsət, nə cavanlıq.
Az ömrümdə cana doydum, həyatımdan bezdim inan,
Nə yaxşı ki, bircə ömrə yazılmamış cavidanlıq.
Oyananda hər gün səhər qara bulud gördüm ağlar,
Bu üfüqlər bircə dəfə görməmişdir şadimanlıq.
...Xəzan vurmuş Şəhriyarın gülşənini, gülünü də,
Bülbül təbi susan gündən qalmamışdır nəğməxanlıq.

Bu qədər dərdin, yanğının içində "bir gün gülüb yüz il ağlayan" Şəhriyarda hərdən ümid cücərtiləri də baş qaldırır. Və "Hidayət çırağı" şeirini belə yekunlaşdırır:

Düşüb qabaqda gedir Şəhriyar, əlində çıraq,
Yarır hidayətinin nuru zülməti, ey dost.

Ancaq bu "nikbinliklər" heç də yaradıcılığındakı bədbin notları kölgələyə bilmir. O öz səviyyəsinin fərqindədir deyə belə deyir. Bütövlükdə isə həmyerlisi Əbülhəsən Racinin hələ XIX əsrin ortalarında dediyi "Ağla hər gün ruzi-aşuradır, hər yer Kərbəla" nidasının Şəhriyar dövründəki əks-sədası, estetik yaşarlılığı, şair məninin narahat dünyasının bədii inikasıdır.

***Sədrəddin HÜSEYN***
***shüseyn@beu.edu.az***